**Əlisa Nicat**

# QIZILBAŞLAR

qanun nəşriyyatı

“Qızılbaşlar” romanı Azərbaycan tarixinin ən qüdrətli simalarından olan Şah İsmayıl Xətainin və Səfəvilər dövlətinin ən parlaq dövrünün təsvirinə həsr olunmuş ilk böyük nəsr əsəridir. Kitabda Qızılbaş hərəkatının ideoloji əsasları, siyasi missiyası və Şərq tarixində oynadığı rol geniş və analitik şəkildə araşdırılır. Müəllif Qızılbaşları təkcə hərbi-siyasi birlik kimi deyil, dünyagörüşü, inanc sistemi və milli-mənəvi kimlik daşıyıcıları kimi təqdim edir. Əsərdə Səfəvilər dövrünün ideoloji mübarizəsi, din və dövlət münasibətləri, türk kimliyinin formalaşması məsələləri fəlsəfi yanaşma ilə şərh olunur.

1960-cı illərin əvvəllərində yazılan bu roman o dövrün məşhur xalq yazıçılarının səyləri nəticəsində yalnız 1983-cü ildə işıq üzü görüb. O vaxtdan Azərbaycanda və Türkiyədə dəfələrlə nəşr olunub.

# MÜNDƏRİCAT


ƏSRİN MƏNZƏRƏSİ .......... 6

GİLAN .......... 13

ŞİRVAN .......... 91

TƏBRİZ .......... 179

ÇALDIRAN .......... 296

EPİLOQ .......... 349

# ƏSRİN MƏNZƏRƏSİ

XV əsrin ikinci yarısı Azərbaycan və Yaxın Şərq tarixində ən qarışıq və ziddiyyətli dövrlərdən idi. Bu həmin dövr idi ki, Qara Yusif məşhur fateh Teymurləngin oğlu Miranşah və öz keçmiş müttəfiqi Əhməd Cəlayir kimi iki azman sərkərdəni məğlub edib, Qaraqoyunlular sülaləsinin bünövrəsini qoymuşdu.

Az sonra sanki sarsılmaz olan Qaraqoyunlular dövlətinin də göylərində qara buludlar oynamağa başlamışdı. Qaraqoyunluların sonuncu hökmdarı Cahanşah özünə müttəfiq tapmağa çalışır, vaxtilə babasının viran qoyduğu Şirvandan imdad istəyirdi. Lakin gec idi. Diyarbəkirli Uzun Həsən 11 noyabr 1467-ci ildə Muş yaxınlığında onu məğlub edib Qaraqoyunlu dövlətinə son qoydu.

Sülalələr hər gün yaranmır və onların süqutu tarixdə dərin iz buraxır. Qədim təzkirəçi Qaraqoyunluların sonuncu hökmdarı Cahanşahın son günün belə təsvir edir:

"Mirzə Cahanşah kiçik bir dəstə ilə öz düşərgəsini tərk edib Çabaqçur adlanan yerə gəldi. Bu zaman Həsən bəy (Uzun Həsən) altı min cəsur atlı ilə döyüşə çıxdı.

Cahanşahın bundan xəbəri yox idi. O, şirin-şirin yatırdı. Yaxın adamları onu oyadıb Həsən bəyin yürüşə çıxdığını xəbər verdilər. Mirzə Cahançah tələsik ata süvar oldu. Ancaq Ağqoyunlu atlıları onları haqlamışdı. Bu zaman naməlum bir Ağqoyunlu döyüşçüsü arxadan ona çatıb, namərdcəsinə zərbə endirdi. Şah qışqırdı:

– Məni öldürmə, Həsən bəyin yanına apar, o səni mükafatlandırar.

Ancaq aldığı yaranın təsirindən taqətdən düşüb atdan yıxıldı. Döyüşçü bir əngəl çıxacağından qorxub, onun başını kəsib gizlətdi."[1]

Bununla da 90 il davam edən Qaraqoyunlular sülaləsinin hakimiyyətinə son qoyuldu.

Qaraqoyunluların süqutunun bir çox səbəbləri vardı. Ən başlıcası bu idi ki, Qaraqoyunlu şahları öz güclü rəqibləri ilə mübarizədə Azərbaycan xalqının rəğbətini qazanıb, onu səfərbər edə bilmədilər.

Ağqoyunlular Qaraqoyunlulara nisbətən daha möhkəm bünövrə üzərində fəaliyyətə başladıqlarından, onların hakimiyyəti də uzun ömürlü oldu. Bu möhkəm dayaq Diyarbəkir idi. Qarayoluq Osman, Əmir Teymurun Bəyazid ilə vuruşunda göstərdiyi sədaqətə görə qanlı fateh Diyarbəkiri ona bağışlamışdı. Qarayoluq Osman və onun varisləri Uzun Həsən siyasət meydanına çıxana qədər bu vacib istinadgahı əldən vermədilər.

1468-ci ildə Həsən bəy Bayanduri Ağqoyunlu taxtına çıxdı. Bu nəinki Azərbaycan, ümumiyyətlə, Şərq və beynəlxalq siyasət meydanında yeni bir cahangirin zühuru idi. Hələ gəncliyində Uzun Həsənlə görüşən Avropa səy-

---
[1] Şərəfxan Bidlisi, "Şərəfnamə."

yahlarından biri onu belə təsvir edir: "Uzun Həsən çox möhkəm bədənli, ağıllı və gözəl bir gəncdir. Səxavətli, ədəbli, gülərüzlü olduğu qədər də igiddir. Boyu çox ucadır, ağırlığına hər at dözmür."

Ağqoyunlu hökmdarı iradəli, qətiyyətli və uzaqgörən siyasi xadim idi.

Uzun Həsən taxta çıxanda yeni sülalənin qarşısında tezliklə həll edilməli çoxlu problemlər dururdu. İlk növbədə Teymurilərin son qəlpələrindən biri Əbu Səidi aradan götürmək lazım idi. Lakin bu o qədər də asan məsələ deyildi. Ağqoyunluların nüfuzundan qorxuya düşən bir çox sərkərdə və siyasətçi öz qoşunlarıyla gəlib Əbu Səidə qoşulmuşdu. 1467-ci ildə Əbu Səid – Uzun Həsənin onu qabaqlamasını gözləməyərək – Azərbaycana yürüş etdi.

Yaxın Şərqdə Uzun Həsənə meydan oxuyacaq ikinci bir hökmdar yox idi. Bircə Əbu Səid idi ki, tale deyəsən özü onu fəlakətə sürükləyirdi. Ancaq Uzun Həsən vaxt qazanmalıydı. O, siyasi danışıqlarda sınaqlardan çıxmış və bütün Şərqdə şöhrət qazanmış anası Sara xatunu Xorasana – Əbu Səidin yanına sülh adıyla rəsmi görüşə, əslində vaxt qazanmağa göndərdi. Ancaq Əbu Səidi "ölümə doğru" yürüşündən bu mahir siyasətçi qadın da saxlaya bilmədi.

Uzun Həsən ona görə qalib gəldi ki, onun arxasında Şirvanşah Fərrux Yasar və Ərdəbil hakimi Şeyx Heydər kimi iki qüdrətli nüfuz sahibi dururdu. Uzun Həsən bir də ona görə qalib gəldi ki, onun arxasında Azərbaycan xalqı dururdu.

Nəhayət, 1468-ci ildə Uzun Həsən öz ilkin məqsədinə çatdı. Paytaxtı Təbriz olan qüdrətli bir səltənət yaratdı. Bu səltənət İran, İraq, Azərbaycan, Diyarbəkir kimi geniş bir

ərazini əhatə edirdi. Lakin onun daha bir niyyəti vardı. Öz qüdrətinin zirvəsində olan Ağqoyunlu hökmdarı həyatının əsas məqsədinə – türk sultanı II Mehmet ilə döyüşə hazırlaşmağa başladı. Bunun üçün o, Venetsiya, Polşa, Vatikan, Macarıstan ilə siyasi, iqtisadi və hərbi əlaqələrə girib, osmanlılara qarşı vahid cəbhə yaratmağa çalışdı. Ancaq son nəticədə bunların heç birinə nail ola bilmədi. Nə Avropa dövlətlərindən odlu silah əldə etdi, nə də vahid cəbhədə hücum təşkil edə bildi.

Nəhayət, 1473-cü il avqustun 11-də Tərcan (Otluqbeli) düzənliyində Şərqin iki qüdrətli fatehi üz-üzə gəldi. Bir tərəfdə cəsurluq və qəhrəmanlıq, o biri tərəfdə rəşadət və səbat, bir tərəfdə xəncər və ox, o biri tərəfdə top və tüfəng. Bütün Avropanı lərzəyə salan Yeniçəri ordusuyla Şərqdə misli-bərabəri olmayan azərbaycanlı süvarilərinin bu qanlı döyüşünün taleyini top atəşləri həll etdi.

Uzun Həsən Tərcan məğlubiyyətindən sonra daha beş il yaşadı və yenə əvvəlki niyyətindən – Sultana qarşı birləşmiş cəbhə yaratmaq üçün Avropa dövlətləri ilə ittifaq yaratmaq təşəbbüsündən əl çəkmədi. Ancaq tarix öz hökmünü vermişdi.

Qızılbaşlar... Kimdir bu adamlar? Azərbaycan tarixində, təkcə Azərbaycan deyil, İran və Kiçik Asiya tarixində, Azərbaycan xalqının taleyində böyük rol oynayan bu qırmızı çalmalı süvarilərin tarixə ilk yürüşü hardan başlayır?

Səfəvilər əslən ərdəbilli idi. Onların ulu əcdadları hələ çox keçmişlərdə öz nəsillərini İmam Museyi Kazıma, deməli, xəlifə Əliyə və peyğəmbərə bağlayır. Böyük nüfuz qazanmışdılar. Bu nüfuz Şeyx Səfiəddin İshaq zamanında

Ərdəbildə dini və dünyəvi hakimiyyətə çevrilmişdi. Şeyx Səfiəddin Ərdəbildə sufi təriqəti yaradıb, ətrafına saysız-hesabsız ardıcıllar toplamışdı. Hətta monqol şahları və Teymurilər belə onunla hesablaşmağa məcbur idilər.

Görünür, elə Şeyx Səfiəddin zamanında da bütün Azərbaycan taxt-tacına sahib olmaq iddiası meydana çıxmışdı. Onun xələfləri özlərini "Səfəvi" adlandırıb, tədricən həmin məqsəd uğrunda mübarizəyə başladılar. Lakin bu mübarizə yalnız Şeyx Cüneyd zamanında açıq şəkil aldı.

Qaraqoyunlu Cahanşah hakimiyyətini Şeyx Cüneydlə bölüşdürmək istəmədi. Şeyx Qaraqoyunlu sülaləsinin qürub çağının yetişdiyini hiss edirdi. Ağqoyunluların isə, əksinə, günəşi par-par parlayırdı. Cüneyd tərəddüd etmədən Uzun Həsənin ordugahına gəlib, ona ittifaq əlini uzatdı. Uzun Həsən səfəvi müridlərinin şücaət və inadına bələd idi. O, vaxtında edilən bu dostluq və qardaşlıq vədini bacısı Xədicə bəyimlə mükafatlandırdı. Cüneyd Uzun Həsənin bacısı ilə evləndi və Cahan şahın ölümündən sonra Ərdəbilin taleyi yenidən ona tapşırıldı. Lakin Uzun Həsən bilmirdi ki, Ərdəbil artıq Səfəvilər üçün bir siyasət meydanı kimi çox kiçikdir. Cüneydin gözləri çoxdan bəri Şirvana baxırdı. Orada nə vaxtdan bəri tarixin hansı dalğasınınsa vurub atdığı bir fars sülaləsi ağalıq edirdi.

1460-cı il martın 3-də Şeyx Cüneyd kiçik, lakin cəsur bir ordusu ilə gözlənilmədən Şirvan üzərinə yeridi. Şirvanşah I Xəlilüllah Samur çayı sahilində böyük ordu ilə onun qabağını kəsdi. Ancaq qüvvələr qeyri-bərabər idi. Həmin gün Şeyx Cüneyd və yaxın müridləri başlarını Samur sahilində qoydular.